**“525-ci qəzet”.-**2010.-30 iyun.-N.114.-S.4.

## İslam Konfransı Təşkilatı, yaxud Müsəlman Dövlətləri İttifaqı

XX əsrin ortalarında dünyada baş verən iqtisadi, siyasi və geosiyasi proseslərin öncədən proqnozlaşdırılması müsəlman dövlətlərinin imkanı xaricində idi. Təbii ehtiyatlarla, ən başlıcası isə enerji resursları ilə zəngin islam dünyası inkişaf etmiş dövlətlərin ekspansiyasına məruz qalmamaq üçün İslam Konfransı Təşkilatının (İKT) yaradılmasında maraqlı idi. Müsəlman dünyası mürəkkəb və çoxşaxəli olmaqla yanaşı, iqtisadi-siyasi səviyyəsinə, dövlət quruculuğu modelinə görə də Qərb dövlətləri ilə rəqabət apara bilmirdi. Eyni siyasi-iqtisadi platformadan çıxış etmək arzusu isə belə bir təşkilatın yaradılmasını zəruri edirdi.

İndi İKT-də 57 müsəlman dövləti 1,4 milyard insanı təmsil edir və bu təşkilat hazırda BMT-nin analoquna çevrilməkdədir. Təşkilatın mənzil qərargahı Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşir. İKT-nin əsas orqanı siyasi qərarlar qəbul edən və sammitlərin hazırlanmasını təşkil edən xarici işlər nazirləri Şurasıdır. Baş katiblik icraedici orqandır və qurumda təmsil olunan xarici işlər nazirləri tərəfindən 4 ildə bir dəfə seçilir. Cari ilin yazından İKT öz fəaliyyətinə Qazaxıstan Respublikasında daimi nümayəndəlik açmaqla başlayıb. Belə bir hadisə regionda lider dövlətə çevrilməkdə olan ölkə üçün böyük əhəmiyyət kəsb edir. Qazaxıstan gələn ildən İKT-yə sədrlik etməyə hazırlaşır və rəsmi Astana müsəlman dövlətləri ilə qarşılıqlı əməkdaşlıq etməkdə olduqca maraqlıdır. Daimi nümayəndəliyin açılması Ciddə şəhərində İKT-nin 33-cü sessiyasının keçirilməsi ilə eyni vaxta təsadüf edir. İKT-nin baş katibi Ekmələddin İhsanoğlu çıxışını təşkilatın daha da inkişaf etdirilməsi məsələlərinə həsr edib və İKT ilə ATƏT-in əməkdaşlığını yüksək qiymətləndirib. Eyni zamanda, Ekmələddin İhsanoğlu 2010-cu ilin iyun ayının sonunda bu iki təşkilatın Astanada birgə seminar keçirəcəkləri barədə Şura üzvlərinə məlumat verib. Dünyada stabilliyin qorunmasında və təhlükəsizliyin təmin edilməsində bu seminarın böyük önəm daşıdığını o xüsusi vurğulayıb. Qazaxıstan hazırda ATƏT-in fəaliyyətdə olan sədridir və yuxarıda qeyd olunduğu kimi, gələn ildən İKT-yə sədrlik etməyə hazırlaşır. Bütün bunları nəzərə alsaq, 2011-ci ildə rəsmi Astananın dinlər arasında körpü rolunu oynayacağı ehtimalına ümidlər artır.

Səudiyyə Ərəbistanının kralı Abdulla bin Abdel Əzizin təşəbbüsü ilə Məkkə şəhərində İKT dövlət başçılarının növbədənkənar çağırılmış sammitində bu iki təşkilatın əməkdaşlığı perspektivləri müzakirə edilib. Siyasi, iqtisadi, informasiya, mədəni və humanitar sahələrdə qlobal problemlərin həlli yolları araşdırılıb. İslam dövlətləri ilə dünya ölkələri arasında birgə əməkdaşlıq üçün tövsiyələr hazırlanıb. Nəticədə İKT-nin 2016-cı il üçün proqram sənədi, yol xəritəsi hazırlanıb. Proqramda nəzərdə tutulan müddəalar dünyəviliyi ilə seçilir, zorakılığı, terrorizmi rədd edir və Qərb ölkələrində yaşayan müsəlman icmalarının hüquqlarının qorunmasını özündə əks etdirir.

İndi islam dövlətləri dünyada gedən proseslərə biganə qalmamalı, etnik münaqişələrin həllində, irqi ayrıseçkiliyin, kasıbçılığın aradan qaldırılmasında iştirak etməli, insan hüquqları və demokratik prinsiplərin pozulmasına qarşı çıxmalıdırlar. XXI əsrdə İKT-nin Müsəlman Dövlətləri İttifaqına (MDİ) çevrilməsi ehtimalı olduqca böyükdür. Belə bir ittifaqın yaradılması ilə hazırda İKT-də birləşən 57 dövlətin (1,4 milyard əhali) iqtisadiyyatının inkişafı qaçılmazdır və beynəlxalq aləmdə söz sahibi olmaq ehtimalı olduqca böyükdür.

### İKT (MDİ) və Qarabağ ...

Yuxarıda qeyd edildiyi kimi, hazırda ATƏT-ə sədrlik edən Qazaxıstan gələn ildən daha bir mötəbər quruma – gələcəkdə MDİ-yə çevrilməsi ehtimal olunan və gözlənilən İKT-yə sədrlik edəcək. Bu isə 1988-ci ildən başlayan və bugünədək də öz həllini tapmayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müsbət, ədalətli həllinə, nəhayət, öz töhfəsini verə bilər. Hər halda Azərbaycan cəmiyyətində dost və qardaş dövlət olaraq, ATƏT-ə sədrlik edən və eyni zamanda, İKT-yə sədrlik etməyə hazırlaşan Qazaxıstandan gözləntilər böyükdür. Onu da xatırlatmağa dəyər ki, Azərbaycan İKT-yə daxil olan gündən bu yana Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində birmənalı və obyektiv mövqe sərgiləyən qurum məhz bu təşkilatdır. İKT ilk gündən bu münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipi çərçivəsində həllini, o cümlədən işğal olunmuş torpaqlardan Ermənistan hərbi birləşmələrinin qeyd-şərtsiz çıxmasını tələb edir. Təsadüfi deyil ki, 20-ci əsrin ən böyük qətliamlarından olan Xocalı faciəsini soyqırım aktı kimi tanıyan yeganə təşkilat da məhz İKT-dir. Bu təşkilatın Parlament İttifaqının bir neçə ay öncə Uqandanın paytaxtında keçirilən növbəti toplantısında Xocalı faciəsinin soyqırım aktı kimi tanınması ilə bağlı qətnamə qəbul olunub. Bununla belə, əsas və baş prinsipi müsəlman birliyi, həmrəyliyi və qardaşlığının təmin edilməsi olan İKT-nin bir sıra üzvləri, o cümlədən Azərbaycanla qonşu bəzi müsəlman dövlətlər, çox təəssüflər olsun ki, ötən dövr ərzində bu prinsipdən kənara çıxaraq, onu pozaraq təcavüzkar və işğalçı Ermənistanla əməkdaşlığa, işbirliyinə daha çox üstünlük verirlər və verməyə çalışırlar. Bu baxımdan daha məqsədəuyğun olardı ki, İKT və onun Parlament İttifaqı tezliklə öz üzv dövlətlərindən onun baş prinsipi olan müsəlman birliyi, həmrəyliyi və qardaşlığı prinsipinə birmənalı əməl olunmasını tövsiyə və tələb etsin. Eyni zamanda, bu quruma üzv olan dövlətlər, onların parlamentləri ayrı-ayrılıqda Ermənistanın təcavüzkarlıq siyasətini pisləyən, eləcə də Xocalı qətliamını soyqırım aktı kimi tanıyan qərar və qətnamələr qəbul etsinlər. Əgər belə olarsa, bununla həm uzun illərdən bəri davam edən, İKT-nin əsas aparıcı

üzvlərindən və dövlətlərindən olan qardaş Türkiyəni təhdid, təzyiq altında saxlayan uydurma və qondarma "erməni soyqırım" iddialarının qarşısının alınmasına, həm də 22 ildən artıq sürən və həlli düyünə düşən Ermənistan-Azərbaycan münaqişəsinin müsbət, ədalətli həllinə böyük töhfə, təkan verilmiş olar. Düzdür, Ermənistan-Azərbaycan münaqişəsinin yaxın zamanlarda müsbət və ədalətli həlli hələ ki, çətin və qaranlıq görünür, amma, necə deyərlər, ümid də ən sonda ölür. Bu ümidin ölməməsi üçün isə həm İKT, həm onun Parlament İttifaqı Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həllində daha aktiv, fəal rol oynamağa cəhd göstərməli, həm də təcavüzə uğrayan bir ölkə kimi Azərbaycan bu qurum və ona üzv olan dövlətlərlə daha ardıcıl, mütəmadi və daha ciddi işləməyə çalışmalıdır...

**İlham FƏTƏLİYEV, İqtisadçı-politoloq**